UOT 821(091)

YUSİF ƏLİYEV

# REDYARD KİPLİNQ-ÖZÜNƏMƏXSUS VƏ BƏNZƏRSİZ YAZIÇI

*Məqalədə XIX əsr İngilis ədəbiyyatının məşhur yazıçılarından biri olan Redyard Kiplinqin yaradıçılıq yolu, ədəbi fəaliyyətinin müxtəlif mərhələləri barədə şərhlər verilir. Göstərilir ki, Kiplinqin yaradıçılıq fəaliyyəti zamanının ədəbi mühiti üçün çox mürəkkəb bir dövrdə başlandı. Kiplinq müasir romantik qəhrəmanlara olan ehtiyyacı görür, yeni əxlaqi görüşlər və yeni mifoloji baxışlar konteksində dövrünün təkamül nəzəriyyəsinin formulasını yaradırdı. Bu nöqteyi-nəzər XX və XXI əsrlərin kiplinşünaslığının əsas tendensiyasını əks etdirirdi. Beləliklə, Kiplinqin romantik ideyaları onun xüsusi, ayrıca romantizmindən bəhs etməyə imkan verir ki, məqalədə bu əsasda yazıçının yardıcılıq fəliyyətindən danışılır.*

***Açar sözlər:*** *XX əsr ingilis ədəbiyyatı, Redyard Kiplinq yaradıcılığı, "Mauqli" haqqında romanlar, Redyard Kiplinqin ingilis ədəbiyyatında yeri.*

XIX əsr İngilis ədəbiyyatı Redyard Kiplinqin simasında özünəməxsus, orjinal xüsusiyyətlərə malik yazıçının söz çələngi ilə zənginləşdi. İlk əsərlərindən dünyanın təbii elmi mənzərəsinin İngilis enpirizminin prizmasına uyğunlaşdırararaq bədii ifadəsini vermək Redyard Kiplinqin özünəməxsus sənətindən xəbər verirdi. Redyard Kiplinq əsərlərində canlı aləmin təkamülünü,bioloji növlərin müxtəlifliyini,təbii seçmə və mövcüdatın varlığını mübarizə və fəaliyyət prinsiplərini əks etdirir.Belə də demək mümkündür ki, Redyard Kiplinq bir çox əsərlərində Ç.Darvinin təkamül nəzəriyyəsini bədiiləşdirə, obrazlaşdıra bilmişdir (6,32).

Redyard Kiplinqin əsərlərinin qəhrəmanları və bədii xüsusiyyətləri neoromantizmin əlamətlərini özündə əks etdirir ki,məhz buna görə də ümumdünya oxucu marağı yeni mifologiyanı yaratmaqda müəllifə kömək edir.

Beləliklə tədqiqatın məqsədi Redyard Kiplinqin ədəbi bədii əsərlərində parlaq müşahidə qabiliyyətinin, təxayyülünün təkrarsızlığını, ideyalarının yetkinliyini göstərmək, tələbələrə ümumən Azərbaycan oxucusuna bu böyük sənətkarın həyatı və yaradıcı fəaliyyəti haqqında məlumatlandırmaqdan ibarətdir.

Azərbaycan ədəbiyyatşünasılığında Redyard Kiplinqə münasibətdə boşluğun olduğunu etiraf etmək hazırkı şəraitdə R.Kiplinq yaradıcılığını oyrənməklə dünya söz sənətinin korifeylərindən biri haqqında məlumatlı oluruq. Bu isə böyük sənətkarın yaradıcılığının öyrənilməsinin aktuallaşdıran vasitələrdən biri kimi əhəmiyyətlidir.

**Əsas hissə.** XX əsr ingilis ədəbiyyatı Redyard Kiplinq yaradıcılığı ilə özünəməxsus, orijinal xüsusiyyətlər qazandı. Redyard Kiplinq yaradıcılığı üçün zəngin müşahidəçilik, aydın fantaziya və ideya baxışları, yüksək istedadla təsvir etmə qabiliyyəti səciyyəvi xüsusiyyətdir. "Cəngəlliklərin ikinci kitabı", "Kim" romanı, "Sadəcə nağıllar", "Üç əsgər", "Qədim ingilis nağılı", "Qərb və Şərq haqqında ballada" və s. bu kimi əsərlər Kiplinqin janr, üslub xüsusiyyətləri ilə seçilən, dəyərli obrazlar qaleyerasını özündə ehtiva edən əsərlərdir.

Redyard Kiplinq ingilis ədəbiyyatında yazıçı, şair və novella ustası kimi tanınır.1907-ci ildə ilk Britaniyalı kimi ədəbiyyat üzrə Nobel mükafatçısıdır. O həmçinin Paris,Strasburq, Afin, Toronto, Oxford, Kembric, Ednburq, Durham universitetlərinin mükafatlarına layiq görülmüşdür. Redyard Kiplinq 30 dekabr 1865-ci ildə Hindistanın Bombey şəhərində yerli məktəbdə incəsənətdən dərs deyən müəllim ailəsində anadan olmuşdur.Valideynləri Kiplinqi 6 yaşından İngiltərəyə göndərir. Devondakı məktəbdə təhsil alır. Orta təhsilini bitirdikdən sonra yenidən Hindistana dönür, Lahorda jurnalist kimi fəaliyyətə başlayır və yazıları ilə özünü tanıda

bilir.1889-cu ildə yenidən İngiltərə qayıdır. İngilis dilini mükəmməl bilməsi, Hindistanda jurnalistik fəaliyyətinin gözəl ədəbi nümunələri, ümdəsi isə romantizimlə realizmi birləşdirməyi bacarmaq məharəti ona müasir dünyanın ən nüfuzlu Nobel ədəbiyyat mükafatını qazandırdı. Onun əsərləri dövrünün xarakterinə görə məzmunca realist idi, forma və üslub cəhətdən romantikdir. O həmdə bu nüfuzlu mükafatı alan ən gənc yazıçıdır. R.Kiplinq yaradıcılığı üçün zəngin müşahidəçilik, aydın fantaziya, ideya baxışları və yüksək istedadla təsvir etmək səciyyəvi xüsusiyyətdir. “Cəngəlliklərin kitabı”, “Kim”, ”Üç əsgər”, “Qədim Britaniyanağılı”, “Qərb və Şərq haqqında ballada” və s. bu kimi əsərlər Kiplinqin dəyərli obrazlar qalereyasını təşkil edən əsərlərdir.

1889-cu ildə Kiplinq İngiltərəyə gedir. Sonralar Birma, Çin və Yaponyaya səfərlər edir, Amerika Birləşmiş Ştatlarını qarış-qarış gəzir, Atlantik okeanını keçib yenidən İngiltərəyə qayıdır, Londonda məskunlaşır. Burada Kiplinq gənc amerikalı naşir Uolkott Beylstir ilə tanış olur. Onlar birlikdə “Naulaka: Qərb və Şərqin hekayəsi” povesti üzərində işləyirlər. 1892-ci ildə Beylstir yatalaq xəstəliyindən ölür. R.Kiplinq onun bacısı Karolina ilə evlənir. Ailə həyatının ilk ayında Kiplinqin əmanət saxladığı bank müflisləşir. Onların pulu yalnız Karolinanın qohumlarının yaşadığı Amerika Birləşmiş Ştatlarının Bermond şəhərinə gəlməyə kifayət edir. Kiplinq və ailəsi burada 4 il yaşayır.

Kiplinqin əsərlərinin metaforalarla zəngin dili ingilis dilinin xəzinəsini xeyli zənginləşdirmişdir. Çoxşaxəli yaradıcılığı həmişə ədəbi ictimaiyyətin, geniş oxucu kütləsinin diqqət mərkəzində olmuşdur. Kiplinqin əsərlərində Hindistanla bağlı mövzular mühüm yer tutmuş, oxucu marağına səbəb olmuşdur. Məhz bu əsərlərdəki təşbehlər, metaforalar ingilis dilini zənginləşdirmiş, ingilis ədəbiyyatına böyük töhvələr vermişdir. Hind dilinə və yerli adət-ənənələrə bələdliyi olan Kiplinq britaniyalıların Hindistanı “kəşf etməsinə” imkan yaratdı. 1886-cı ildə işıq üzü görən ilk kitabı –“Departamentin nəğmələri” adlı şeirlər kitabı oxucular tərəfindən rəğbətlə qarşılanmış, geniş yayılaraq həmin ildə ikinci dəfə çap olunmuşdur.

Həmin dövrdə Redyard Kiplinq yenə də uşaqlar üçün yazmağa başlayır. 1893-1895-ci illərdə onun məşhur “Cəngəlliklər kitabı” və “Cəngəlliklər ikinci kitabı” işıq üzü görür. Bu kitablarda Mauqli haqqında nağıl-povest əsas yer tutur. Povestdə cəngəlliklərdə böyüyən Mauqli adlı oğlandan danışılır. Odunqıranın iki yaşlı oğlu cəngəlliklərdə itir. Şerxan adlı axsaq pələng addımbaaddım onu izləyərək qənimətinə çevirmək istəyir. Uşaq sürünə-sürünə canavar yuvasına gəlir. Ata və ana canavarlar onu öz ailəsinə qəbul edir və Şerxandan qoruyurlar. Uşağın adını Mauqli (yəni “qurbağa”) qoyurlar. Ayı Balu və qara panter Baqira Mauqlinin canavarlar ailəsinə qəbul edilməsini dəstəkləyirlər.

Mauqli yaramazlara qarşı amansız, güclü və qorxmaz böyüyür. O, adamyeyən Şerxana qalib gəlir, əvvəlcə canavar sürüsünün başçısı, daha sonra tropik meşələrin hökmdarı olur. Mauqlinin xeyirxah və mehriban ürəyi var. Onun bu keyfiyyətləri Akela (canavarların başçısı), Balu, Baqira və Kaa adlı ilana qarşı qayğıkeş münasibətində görünür. Mauqli şüurlu olduğu üçün cəngəlliklərin qanunlarını dərk edə bilir. O, tropik meşələrin sakinlərinə “Bizim qanımız birdir, sənin də, mənim də” sözləri ilə müraciət edir. Buna görə də onu hamı sevir. Onu “Rədd ol!” sözləri ilə daşa tutan insanlara qarşı ürəyində kin saxlamır. Cəngəllik qanununa əsasən, bir müddət sonra insanların yanına qayırdır və onları bağışlayır. Onun əsərləri təbiətdən doğulmuşdu və təbiətin özü kimi sadə idi.

1899-cu ildə Kiplinq ailəsi ilə birlikdə bir neçə ay Cənubi Afrikada yaşayır. 1901-ci ildə onun ən yaxşı əsərlərindən biri sayılan “Kim” romanı çapdan çıxır. Yazıçı Afrikada uşaqlar üçün yeni kitabına material toplamağa başlayır. Bu kitab “Sadəcə nağıllar” adı ilə 1902-ci ildə işıq üzü görür. Həmin il o, İngiltərənin Sasseks qraflığında ev alır və ömrünün sonunadək burada yaşayır. Burada o, məşhur “Sehrli təpədən gələn Pak” (“Puck of Pook’s Hill”, 1906, nağıllar,

şeirlər və hekayələr) və “Mükafatlar və pərilər” kitablarını yazır. Bu kitablarda qədim ingilis nağılları yazıçının Şekspirin pyeslərindən əxz etdiyi personajın - nağılbaz elf Pakın dili ilə nəql edilir.

Birləşmiş Ştatlarda qaldığı dörd ildə Kiplinq daha çox uşaqlar üçün yazmışdı. "Cəngəlliklər kitabı" (1894), "Cəngəlliklərin ikinci kitabı" (1895), "Yeddi dəniz" (1896) kitabları bu dövrdə yaranmışdı. 1896-cı ildə o, çoxsaylı maddi və mənəvi çətinliklərlə üzləşdiyi Vermontu tərk edib ailəsi ilə birlikdə Londona qayıtmışdı. Burada tezliklə ədəbi aləmdəki nüfuzunu və yerini bərpa edə bilmişdi. 1901-ci ildə isə ən yaxşı nəsr əsəri sayılan "Kim" romanı çap olunmuşdu. Hind tənqidçisi Niradu Çaudxuri bu əsəri "təkcə Hindistan haqqında ən yaxşı ingilis romanı yox, bütünlükdə ən yaxşı ingilis romanlarından biri" adlandırmışdı.

Kiplinq 1902-ci ildə Susseks qraflığında malikanə almış və ömrünün sonuna qədər burada yaşamışdı. Onun məşhur "Sadəcə hekayələr" silsiləsinə daxil olan novellaları, Britaniyanın qədim tarixi ilə bağlı uşaq hekayələri, çoxsaylı şeirləri bu malikanədə yazılmışdı. Kiplinq siyasətlə də maraqlanırdı. Mühafizəkarlar partiyasını müdafiə edir, Avropada genişlənən feminizm hərəkatına qarşı çıxırdı.Hindistanın əsrarəngiz təbiətini, sirli və sehrli dünyasını təsvir edən əsərlər yaratsa da, Kiplinq daha çox Britaniya imperializminin tərənnümçüsü kimi çıxış edirdi. Təsadüfi deyil ki, məşhur “1984” antiutopiyasının müəllifi, Kiplinq kimi Hindistanda doğulub böyüyən Corc Oruell yazıçı həmkarını istehza ilə "ingilis imperializminin vaizi" adlandırmışdı. Redyard Kiplinqin ingilis ədəbiyyatı qarşısındakı mühüm xidmətlərindən biri də ədəbi dili həmin dövrə qədər təsəvvür olunmayan bədii-poetik yüksəkliyə qaldırması, zənginləşdirməsi idi. Digər Nobel laureatı T.S.Eliot Kiplinq şeirlərinin bədii kamillik baxımından klassikləri də üstələdiyini yazırdı.1907-ci ildə Kiplinq ingilisdilli ədəbiyyatın ilk nümayəndəsi kimi Nobel mükafatına layiq görüldü. O, həm də ədəbiyyat sahəsinin ən gənc laureat idi: İsveç Akademiyasının qərarı elan olunanda 42 yaşı vardı. Aradan keçən yüz il ərzində bu özünəməxsus rekordu təzələmək mümkün olmamışdır.

Nobel mükafatı aldığı il Redyard Kiplinq on üç cild təşkil edən novellaların, dörd romanın, uşaqlar üçün yazılmış üç hekayələr kitabının, çoxsaylı məqalələrin, yol qeydlərinin və yüzlərlə şerin müəllifi kimi tanınırdı. O, həm də Britaniyanın ədəbi yaradıcılığı müqabilində ən çox qazanan yazıçısı idi.

İsveç Akademiyası “dünya miqyasında tanınan məşhur sənətkar” adlandırdığı Kiplinqi “parlaq müşahidə qabiliyyətinə, təxəyyülünün təkrarsızlığına, ideyalarının yetkinliyinə və diqqətəlayiq təhkiyə istedadına görə” mükafatlandırmışdı. Müəllif təntənəli təqdimat mərasiminə qatılsa da, ənənəvi Nobel mühazirəsi ilə çıxış etməkdən boyun qaçırmışdı.1907-ci il, ümumiyyətlə, Kiplinqə düşərli olmuşdu. Həmin il o, Kembric, Oksford, Edinburq universitetlərinin fəxri doktoru seçilmiş, həmçinin Paris, Strasburq, Afina və Toronto universitetlərinin mükafatını almışdı.

Tədqiqatçıların fikrincə, Nobel mükafatı Kiplinq üçün ruhlandırıcı stimula çevrilməmişdi. Əksinə, yaradıcılığında müəyyən tənəzzül ünsürləri meydana çıxmış, Nobel laureatı kimi yazıb-yaratdığı otuz ilə yaxın müddət ərzində ortaya sambalı əsər qoya bilməmişdi. Həyatının son illərində və ölümündən sonra isə onun yaradıcılığına maraq, ümumiyyətlə, azalmışdı. Bu həm Kiplinqin müstəmləkəçilik və böyük dövlətçiliyə əsaslanan siyasi baxışları, həm də getdikcə mücərrədləşən çağdaş ədəbiyyat fonunda onun əsərlərinin sadəliyi, hətta bəsitliyi ilə izah edilir.Kiplinqin yeganə oğlu Birinci Dünya müharibəsində həlak olmuşdu. Bundan əvvəl isə yazıçı sevimli qızını itirmişdi. Təbii ki, şəxsi planda yaşanan bu faciələr də onun yaradıcılığına təsirsiz qalmamışdı. Övladlarının ölümündən sonra Redyard və Karolina Kiplinq Beynəlxalq Qırmızı Xaç Komitəsində işləmiş, müharibə qurbanlarının ailələrinə və zərərdidələrə yardım göstərməyə çalışmışdılar.1917-ci ildə Kiplinq "Yaradılmışların müxtəlifliyi" adlı şeirlər

və hekayələr məcmuəsi çap etdirmişdi. 1926 və 1932-ci illərdə müəllifin daha iki hekayələr kitabı işıq üzü görmüşdü. Lakin Henri Ceymsin bir vaxtlar "İngilis Balzakı" adlandırdığı Kiplinq həmin əsərlərlə yenidən sənət Olimpinə yüksələ bilməmişdi.

Redyard Kiplinq ədəbi fəaliyyətini ötən əsrin 30-cu illərinə qədər davam etdirir, amma daha əvvəlki kimi uğur qazana bilmir. Yazıçı 1936-cı il yanvarın 31-də Londonda vəfat edir və Vestminster abbatlığının Şairlər guşəsində dəfn edilir.

Nəticə. XIX əsr və XX əsrin əvvəlləri özündə çox mürəkkəb hadisələri ehtiva edir. Bu dövrün ədəbi fikrində ilk növbədə romantizm aydın, parlaq şəkildə özünü göstərdi. Bu ədəbi metod qərb ədəbiyyatında bir çox sənətkarların həmçinin R.Kiplinqin yaradıcılığında ifadə olundu. Əksər ədəbiyyatşünaslar Redyard Kiplinqə münasibətdə onu "təmiz" romantik kimi səciyyələndirirdilər. Digər bir qrup ədəbiyyatşünaslar isə onu neoromantik kimi təqdim edirdilər. Redyard Kiplinq epik nəfəsə aləmin bədii dərkini,yaranışın qanunauyğunluğunu,onun tamlığını və ziddiyyətlərini yüksək ədəbi zövqlə, əsl romançı kimi təsvir edə bilirdi. Kiplinq İngilis ədəbiyyatında yazıçı, şair, novella ustası kimi məşhurdur. Onun əsərlərinin dili metaforalarla zəngindir.

Redyard Kiplinqin yaradıcılığında Hindistanla bağlı mövzular da yer almışdır.Uşaqlar üçün əsərləri (Mauqli nağıl-povest) gəncliyin sevimli qəhrəmanlarıdır. Güclü, qorxmaz, xeyirxah və mehriban olan qəhrəmanlar insanıhələ ilk uşaqlıq dövründə sehrləyir.Onlarda müsbət keyfiyyətlər formalaşmasına kömək edir.

Redyard Kiplinqi oxuyub öyrəndikcə insanda həmişə yaxşı hisslər, dərin düşüncələr baş qaldırır. Mənəvi təmizlik, saf duyğular yaranır ki, buda böyük yazıçının yaradıcılığının zaman –zaman aktuallığının itirilməyəcəyinə ümid və inam yaradır.

## ƏDƏBİYYAT


1. İngilis ədəbiyyatı antologiyası, İki cilddə, II cild, Bakı, Şərq-Qərb,2007
2. Kiplinq R. Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb,2013
3. Şıxlı İ.XX əsr xarici ədəbiyyat tarixi (Rus dilindən tərcümə). Bakı, 1966. 6.
4. Васильева А. " Книга Джунглей" и Сказки не просто так// Мир музе.2011, № 1, с.32-39
5. Урнов М. В. На рубеже веков: Очерки английской литературы (Конец XIX — начало XX в.) / Академия наук СССР ; Институт мировой литературы им. А. М. Горького.— М.: Наука, 1970.— 430 с.



***Azərbaycan Dillər Universitetinin***
***dissertantı***
***e-mail: yusif.e@hotmail.com***

**Yusif Aliyev**


**REDYARD KIPLING IS A PECULIAR AND UNIQUE WRITER**


The article provides comments on various stages of his literary activity and the creative way of Redyard Kipling, one of the famous writers of 19th century English literature. It is shown

that the creative activity of Kipling began in a very difficult period for the literary environment of his time. Kipling saw the need for modern romantic heroes and created the formula of the theory of evolution of his time in the context of new moral and mythological views. This reflects the main tendency of kiplinology of the 20th and 21st centuries. Thus, Kipling's romantic ideas allow us to speak mainly of his romance, and the article is based on the writer's creative activity.

**Keywords:** *English writer of the 20th century, Reyard Kipling`s creative work, the novels about "Maugli", the place of Reyard Kipling in English literature*

**Юсиф Алиев**

## РЕДЬЯРД КИПЛИНГ-СВОЕОБРАЗНЫЙ И УНИКАЛЬНЫЙ ПИСАТЕЛЬ

В статье рассказывается о творчестве одного из известных писателей английской литературы XIX века Редьярда Киплинга, о различных этапах его литературной деятельности. Показано, что творческая деятельность Киплинга началась в очень сложный для литературной среды период времени. Киплинг видит потребность в современных романтических героях, формулировал теорию эволюции эпохи в контексте новых нравственных встреч и новых мифологических взглядов. Эта точка зрения отражала основную тенденцию киплиноведения XX и XXI веков. Таким образом, романтические идеи Киплинга позволяют говорить в основном о его романе, и, основываясь на это можно говорить о творческой деятельности писателя.

**Ключевые слова:** *Английская литература XXвека,творчество Редьярда Киплинга, романы о "Маугли", место Редьярда Киплинга в английской литературе.*

*(Filologiya üzrə elmlər doktoru Hüseyn Həşimli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant 21.06.2019**
**Son variant 23.09.2019**